**UOT 78.792**

**TƏRANƏ YUSİFOVA***

# OQTAY KAZIMİNİN SƏHNƏ ƏSƏRLƏRİ

*Oqtay Kazıminin çoxşaxəli yaradıcılığı içərisində məhsuldar işlədiyi sahələrdən biri səhnə əsərləridir. Buraya opera, operetta, balet, musiqili komediyalar və teatr tamaşalarına yazılan musiqilər aiddir. Bəstəkarın teatr musiqisi tamaşaçıların qəlbinə yol tapa bilmişdir. Bəstəkar böyük ustalıqla musiqini bədii süjet xəttindən ayrılmaz etməyi bacarır. Əsərin məzmunu ilə musiqinin vəhdəti Oqtay Kazıminin bəstəkarı olduğu bütün səhnə əsərlərində özünü göstərir. Teatr kollektivi ilə işləməyi çox sevməsi bu əsərlərin təqdim olunan siyahısında da öz əksini tapır. Türkiyə tarixinin mühüm dönəmində baş verən hadisələrə həsr olunmuş "Ədirnə Fəthi" dram əsəri qorxmazlıq və igidliyi əks etdirən musiqi nömrələri ilə zəngindir. Əsərdə bəstəkar təsvirçilik elementlərinə yer verir və qəhrəmanların daxili aləmini açan musiqi nümunələri yaradır.*

**Açar sözlər:** *bəstəkar, teatr, musiqi, obraz, melodiya, janr*

Azərbaycan simfoniya janrının inkişafında əvəzsiz xidmətləri olan Cövdət Hacıyevin yetirməsi Oqtay Kazıminin yaradıcılığı rəngarəng və çoxşaxəlidir. Onun yaradıcılığa başlaması 20-ci əsrin 60-cı illərinə təsadüf edir. Bu dövr mədəniyyət və incəsənətin müxtəlif sahələrində inkişaf, yeniliklər, axtarışlar dövrü kimi xarakterizə olunur. Bəstəkar xalq musiqisinə söykənən müxtəlif janrda əsərlərində yeniliyə meylli olduğunu ifadə vasitələri və ritm fərqliliyi ilə nümayiş etdirir. Oqtay Kazımi yaşadığı dövrdə mahnı bəstəkarı kimi tanınsa da, yarım əsrlik yaradıcılığında müxtəlif janrlara müraciət etmiş, Azərbaycan musiqi sənətinə dəyərli töhfələr vermişdir. Müasirləri kimi o, da yaradıcılığında milli lad-intonasiya sistemi ilə müasir ifadə vasitələrini üzvi surətdə birləşdirməyə nail olmuşdur.

"Ritm beynəlmiləl, melodiya milli" deyən bəstəkarın həm iri həcmli, həm də kiçik həcmli əsərlərində mahnıvarilik və lirika hökmranlıq edir. Janr və mövzu baxımından hərtərəfli yaradıcılığa malik olan Oqtay Kazımi XX əsrin son onilliyində vətənpərvərlik mövzusunda "Qəhrəmanlıq simfoniyası" (ikinci redaktə), "Qarabağ lövhələri" simfonik suitası, "Yaşa Respublikam" kantatası (ikinci redaktə), "Nəğməmsən Azərbaycan" kantatası, "Millətin oyaq gecəsi" oratoriyası kimi bir çox əsərlər yazır. Bu isə bəstəkarın torpağını, yurdunu, vətənini, elini sonsuz məhəbbətlə sevən, həyatsevər, xalqına ürəkdən bağlı vətəndaş olduğunu əks etdirir. Genis və maraqlı yaradıcılığa malik olan bəstəkarın əsərlərinin bir qismi təəssüf ki, ifa edilməyib.

Bəstəkarın yaradıcılığının ilk dövrlərindən onun yeniliyə meyilliliyi aşkar şəkildə özünü göstərmişdir. Bu, təkcə onun müraciət etdiyi yeni janrlarla ölçülmür. O.Kazımi bu janrların ideya-obraz aləmini dinləyicinin qəlbinə nüfuz edən ifadə vasitələri ilə çatdırmağı bacarır. Onun musiqi üslubunda müasir musiqi ifadə vasitələri xalq musiqisindən ilhamlanaraq gözəl melodik dillə zənginləşir. Obrazların daxili aləmi, emosional-psixoloji dünyası xalqın başa düşəcəyi bir dildə açılır.

O.Kazımi yaradıcılığında olan iki təmayül, bəstəkarın bütün əsərlərinin melodiyasında xüsusilə özünü əks etdirir. Sırf estrada üslubunda yazılmış əsərlərindən fərqli olaraq, milli xüsusiyyətləri özündə əks etdirən melodiyalarda folklora aid intonasiyalar, muğamsayağı xırdalıqlar, bəzək işarələrindən vaxtaşırı istifadə nəzərə çarpır. Lakin hər iki növ əsərlərdə sinkopalı ritm və sekvensiyalı hərəkət hökmranlıq edir. Sekvensiyalı hərəkətin variasiya olunmuş formalarından istifadə, bəstəkarın nəinki mahnılarının, eləcə də iri həcmli əsərlərinin melodiyasının

yadda qalmasına gətirib çıxarır. O.Kazıminin əsərlərində melodik hərəkət müxtəlifdir. Bu melodiyalar, bəzən yüksək səsdən enmə vasitəsilə aşağıya doğru hərəkət edir, bəzən isə əksinə, aşağı səsdən hərəkət edərək yüksəyə qalxır. Bəstəkarın simfonik musiqisində mahnıvarilik parlaq şəkildə öz əksini tapır. O.Kazımi yaradıcılıq üslubunu xarakterizə edərkən, əsasən, sinkopalı ritmi onun əsərlərinin leyt-ritmi, lirikanı isə əsərlərinin leyt-mövzusu kimi şərtləndirmək olar.

O.Kazıminin yaradıcılığı tematika baxımından çox zəngindir. O, təkcə lirika ilə məhdudlaşmır. Vətənpərvərlik, qəhrəmanlıq, əmək mövzusu, məhəbbət mövzusu O.Kazıminin yaradıcılığında mühüm yer tutur. Bu əsərlərdə Azərbaycan təbiətinin gözəllikləri tərənnüm edilir, vətən oğullarından, əmək qəhrəmanlarından bəhs olunur. Bəstəkarın müraciət etdiyi şairlər sırasında B.Vahabzadə, C.Novruz, F.Qoca ilə yanaşı, R.Zəka, R.Heydər, İ.Coşqun, Y.Həsənbəy və bir çox başqa şairlərin adları vardır. Ümumiyyətlə, O.Kazımi həm müraciət etdiyi musiqi janrlarında, həm də mövzularda cəsarətli addımlar atmışdır. H.Cavidin "İblis" əsəri, M.Ə.Sabirin "Hophopnamə" əsərlərində kəskin satira, dövrün çirkin və ədalətsiz tərəflərini aşkara çıxarmaq cəhdləri, bəstəkarın daxilində alovlanan etiraz səsini ucaltmaq üçün bir vasitəyə çevrilir.

O.Kazıminin teatr tamaşalarına bəstələdiyi musiqi ayrıca bir tədqiqat obyektidir. Bəstəkarın bəzi teatr tamaşalarına yazdığı musiqisi haqqında musiqişünas Nailə Kərimovanın "XX əsrdə Azərbaycan teatr musiqisi tarixi" (rus dilində) monoqrafiyasında [4], eləcə də, R.A.Süleymanovanın "Azərbaycan dram əsərlərinin dramaturji inkişafında musiqinin rolu" (1970-2000-ci illər) dissertasiya işində (2008-ci il) [3] qısa şəkildə bəhs olunur. O.Kazıminin teatr musiqisi də mahnıları qədər güclü emosional təsir qüvvəsinə malik olmaqla dinləyicilərin qəlbinə yol tapa bilmişdir. Bəstəkar səhnə əsərlərinə yazılan musiqi sahəsində çox məhsuldar işləmişdir. Aşağıda təqdim olunan səhnə əsərlərinin siyahısı Oqtay Kazıminin teatr musiqinə olan sevgi və marağının bariz nümunəsidir:

1. "Etiraf", müəllif M.Atəş (1970)
2. "Kəşfiyyatçının taleyi", müəllif V.Şevçenko (1971)
3. "Yatmış gözəl və yeddi qardaş", müəllif A.Puşkin, tərcümə R.Heydər (1974)
4. "İnam", müəllif F.Məmmədov (1974)
5. "Sınaq", müəllif R.Heydər (1975)
6. "Tamahkar", müəllif S.S.Axundov (1975)
7. "Yadda saxla", müəllif A.Məmmədov (1975)
8. "Domokl qılıncı", müəllif N.Hikmət (1975)
9. "Qılınc və qələm" , müəllif M.S.Ordubadi (1975)
10. "Ümid", müəllif M.İbrahimbəyov (1976-1977)
11. "Müsyo Jordan və Dərviş Məstəli şah", müəllif M.F.Axundov (1978)
12. "Mezozoy əhvalatı", müəllif R.İbrahimbəyov (1978)
13. "Qaraçılar", müəllif A.S.Puşkin (1978)
14. "Cehizsiz qız", müəllif A.Ostrovski (1979)
15. "Fitnə", müəllif A.Şaiq (1979)
16. "Şeyx Sənan", müəllif H.Cavid (1983)
17. "Çahargah" fantaziyası, müəllif K.Kərimov (1984)
18. "Dəli İbrahim" Naxçıvan DramTeatrı üçün (1984)
19. "Büllur sarayda", müəllif İ. Əfəndiyev (1985)
20. "Ver yeyim, ört yatım", libretto müəllifi F.Məmmədov (1999)
21. "Ədirnə Fəthi", müəllif C.Cabbarlı (2000)
22. "Azad köpəklər", libretto müəllifi K.Sergeyenko (S.Puşkinin "Axırıncı qatar" (2001)

Opera, operetta

23. "Meşədə futbol", uşaqlar üçün operetta-müzikl, müəllifi İ.Coşqun (1968)
24. "Sehrli yaylıq", uşaqlar üçün operetta-müzikl, müəllif K.Həsənov (1970)
25. "Tiki-Riki-Tavi" operetta, müəllif L.Babinskaya
26. "Danabaş kəndinin əhvalatları" operetta, C.Məmmədquluzadənin eyniadlı povesti əsasında, libretto müəllifi C.Səlimova (1977)
27. "Çal oyna" uşaqlar üçün operetta, libretto müəllifi İ.Coşqun (1982)
28. "Məhəbbət oyunu", iki hissəli operetta, müəllif Q.Rəsulov (1983)
29. "İblis" iki hissəli opera, H.Cavidin "İblis" pyesi əsasında, natamam, libretto müəllifi Ə.Nemətzadə (1985-1987)
30. "Dəli Domrul" qəhrəmanlıq operası, libretto müəllifi A.Məmmədov (1989)
31. "Qızıl toy", müəllif R.Heydər, I redaktə (1974), II redaktə (1989), III redaktə (1990)
32. "Hophopnamə", rok opera, M.Ə.Sabir, A.A.Tufarqanlı və Dilqəm (1991)
33. "On min dollarlıq keyf", 2 hissəli operetta (natamam) (1995)
34. "Dəli dünya", operetta libretto müəllifi F.Məmmədov (1999)
35. "Dədə Qorqud nəğmələri", epik-dramatik opera (2000)
36. "Nazir arvadı" operetta, libretto müəllifi Ə.Səmədli (natamam) (2001)

Bildiyimiz kimi, teatr tamaşalarına, kino-filmlərə yazılan musiqi daha çox gözəl melodiyalarla məşhurlaşır. Burada təqdim olunan qəhrəmanların ifa etdikləri mahnılar, romanslar sonradan müğənnilərin repertuarında əbədi həyat qazanır. Bu baxımdan T.Quliyevin kino-filmlərə yazdığı musiqini yada salmaq kifayətdir. Mahnı janrının peşəkarlarından biri sayılan O.Kazıminin teatr musiqisi də məhz bu keyfiyyətlərə malik olmaqla fərqlənir. Onun müxtəlif məzmunlu əsərlərə bəstələdiyi musiqi bədii süjet xətti, obrazlar aləmi ilə üzvi vəhdət təşkil edərək tamaşaçıların yaddaşına hopmağa və onların dilində sevilən zümzüməyə çevrilməyə qadirdir.

O.Kazıminin müraciət etdiyi ədəbi mənbələr daim öz bəşəri mövzuları, samballılığı, bədii dəyəri ilə diqqəti cəlb edir. Bu xüsusiyyət onun teatr musiqisində daha çox duyulur. Azərbaycan dramaturgiyasında H.Cavid yaradıcılığı daim diqqət mərkəzində olmuşdur. "Şeyx Sənan" dramı bəstəkar yaradıcılığında teatr tamaşalarına bəstələnmiş musiqi ilə yaddaşlarda qalmışdır. Bu baxımdan, 1956-cı ildə F.Əmirovun "Şeyx Sənan" tamaşasına yazdığı musiqinin parlaq nömrələrindən biri olan "Kor ərəbin mahnısı" bu gün də öz məşhurluğunu qoruyub saxlayır.

O.Kazıminin "Şeyx Sənan" tamaşasına yazdığı musiqi ilk gündən maraq və diqqəti cəlb etmişdir. İki sənətkarı bir-birinə bağlayan romantik üslubun özünü göstərməsi musiqi ilə mətn arasında bədii əlaqənin yaranmasına xidmət etmişdir. O.Kazıminin musiqisi əsərin dramatik inkişaf xəttinin, emosional-psixoloji məqamlarının açılmasında mühüm rol oynayır. Ədəbiyyatşünaslıqda "Şeyx Sənan" əsəri qəhrəmanın daxili aləminin, mənəvi dünyasının uğradığı proseslərin əsasında süjet xəttinin qurulması xüsusi olaraq qeyd olunur: "Şeyx Sənan" sırf sufizm mövqeyindən yazılmış əsərdir. Burada qəhrəmanın keçdiyi dərəcələr və yetişdiyi son məqam əsərin əsas süjet xəttini təşkil edir. Konflikt qəhrəmanın mənəvi yüksəliş xətti ilə dəf olunan nəfsləri arasındadır. Obrazların əsərdə daşıdığı funksiya və işlətdikləri ifadələr sufizmin obraz və ifadələrini, ona aid baxışlar sistemini, təriqətləri bilmədən tam bir qaranlıq və dolaşıqlıq yaradır" [1, s. 50].

Tamaşada mərkəzi obraz Şeyx Sənan həm solo nömrələrdə, həm də duetlərdə musiqinin dili ilə açılır. Bəstəkar qəhrəmanın mürəkkəb, təzadlı obrazını bir sıra maraqlı musiqi nömrələri ilə açmağa cəhd etmiş və buna ustalıqla nail olmuşdur. Şeyx Sənanın obrazı ilk dəfə proloqun musiqisi səsləndikdən sonra təqdim olunur. Burada qəhrəmanın daha çox lirik, romantik hissləri,

xarakterinin xəyalpərvər cəhətləri vurğulanır. Bu obraz Şeyx Sənanın Xumarla duetində davam etdirilir. Bəstəkar lirik hissləri geniş kantilen melodiya, sekvensiyalı inkişaf prinsipi vasitəsilə yaratmağa çalışır. Duetdə isə daha çox romans janrının xüsusiyyətləri özünü büruzə verir. Qəhrəmanın təzadlı, çoxtərəfli obrazı müxtəlif musiqi nümunələri ilə təcəssüm olunur. Bu nömrələrdən ən parlağı monoloqdur. Burada Şeyx Sənanın fəlsəfi düşüncələri muğam inkişaf prinsipləri vasitəsilə çatdırılır.

Bəstəkarın yaratdığı musiqi teatr musiqisinin ənənəvi cəhətlərinin təcəssüm etdirilməsində yüksək qiymətləndirilir: "O.Kazıminin "Şeyx Sənan" pyesinə yazılmış musiqi yalnız tamaşanın psixoloji emosional məzmununu ifadə etməklə kifayətlənmir. Bəstəkarın musiqisi tarixən teatr musiqisinin digər önəmli funksiyasını, yəni təsviredici rolunu da yerinə yetirir. O, dövrün abhavasını, hadisələrin cərəyan etdiyi müəyyən məkanı kifayət qədər dolğun əks etdirir" [2, s.114].

Maraqlı musiqi nömrələrindən biri "Sənanın yuxusu" daha çox Xumarın incə simasını təsvir edən elementlərlə zəngindir. Burada bəstəkar xromatik səslənmələri violinin ifasında gözəl və zərif melodiyanın tərkibində verməklə qızın obrazının xəyalını canlandırmağa çalışır. Təsviredici elementlər "Öldürülmə və yanğın" səhnəsində səslənən musiqidə də özünü göstərir.

Tamaşada hadisələrin məkan dəyişməsi musiqidə öz ifadəsini tapmışdır. Belə ki, burada bəzi hadisələr Gürcüstanda baş verdiyi üçün bəstəkar gürcü əhval-ruhiyyəsi yaratmaqdan ötrü onlara məxsus xalq rəqslərinin ritm və intonasiya elementlərindən istifadə etmişdir.

Bəstəkarın 1983-cü ildə İ.Əfəndiyevin pyesi əsasında səhnələşdirilmiş "Büllur sarayda" tamaşasına bəstələdiyi musiqi isə daha çox psixoloji aspektin üstünlüyü ilə diqqəti cəlb edir. Dövrün haqsızlıqları ilə razılaşmayan, insan təbiətinin meşşan xarakterini pisləyən, sadə və təvazökar sənətkar bu əsərdə qəhrəmanların iç dünyasını parlaq şəkildə əks etdirməyə nail olmuşdur. Əsərin baş qəhrəmanı Aynurun obrazı "Büllur saray"ın digər qəhrəmanlarından fərqlənir. Onun daxili aləmi zəngin emosional-psixoloji cəhətlərə malikdir. Bu obraz "Büllur rəqs" nömrəsində daha parlaq əks olunur. Əsərin məhəbbət mövzusu isə Aynurla Həbibin mövzularında eşidilir, aqressiv, dağıdıcı hisslərə malik mövzular isə əsərin digər qəhrəmanı Qədimə məxsusdur. Baxmayaraq ki, əsərin məzmunu daha çox qəhrəmanların iç dünyasının açılmasına xidmət edir, bəzi səhnələrdə bəstəkar təsvirçilik elementlərinə yer verir. Bu baxımdan "Aylı gecə" musiqi nömrəsini misal göstərmək olar.

O.Kazıminin teatr tamaşalarına yazdığı musiqinin səciyyəvi cəhətlərini aşkara çıxarmaq məqsədilə bir neçə tamaşaların musiqisini nəzərdən keçirmək istərdik.

Bəstəkarın musiqi bəstələdiyi tamaşalardan biri də C.Cabbarlının böyük türk sərkərdəsi Mustafa Kamal Atatürkə həsr etdiyi "Ədirnə Fəthi" əsəridir. 1917-ci ildə ilk dəfə tamaşaya qoyulan bu əsərin süjeti Türkiyə tarixinin mühüm dönəmində baş verən hadisələrə həsr olunmuşdur. 1999-cu ildə Heydər Əliyevin C.Cabbarlının 100 illiyinin keçirilməsi haqqında fərmanından sonra bu əsər 2000-ci ildə yeni səhnə həllini tapır. Bu zaman tamaşanın musiqi həlli Oqtay Kazımiyə həvalə olunur. Əsərdə türk xalqının qəhrəmanlıq səhifələri fonunda məhəbbət hisslərini tərənnümü, eləcə də igidlik və qorxmazlıq nümayiş etdirən döyüş nömrələri tamaşanın parlaq musiqi lövhələrindən hesab olunur.

Tamaşa "Fəlakət" adlanan musiqi nömrəsi ilə açılır. Burada xalqın ağır həyat şəraiti, eləcə də uzun sürən müharibələr nəticəsində yaşanan aclıq və səfalət mövzusu şüştər ladının pədələrində punktirli sekundaların verilməsi ilə xarakterizə olunur. Həmin mövzu növbəti "Səfalət" nömrəsində davam etdirilir. Lakin birinci nömrədə əsas mövzu daha çox dramatik xarakter daşıyır. Sekundaların üçsəslilərlə verilməsi, eləcə də şüştərə xarakter olan artırılmış sekundanın eşidilməsi bu dramatizmi artırır. Bu zaman basda əsas tonun ("sol") orqan punktu

kimi saxlanılması şüştər intonasiyalarını bir qədər də vurğulayır. Sekundaların hərəkəti soprano ilə aşağı registrdə növbələşmə prinsipi ilə verilir. Gərginlik artdıqca sekundaların ölçüsü kiçilir və hərəkət tezləşir. Mövzunun ilk xanəsində ladın mayə pərdəsinə eniş və onun ardınca qeyri-sabit pərdələrdə aşağı istiqamətdə art.2-lı hərəkət ilk baxışdan hümayun intonasiyalarını xatırlatsa da, basda eşidilən əsas ton şüştər yüksəkliyini vurğulayır. Bütün nömrə bu motivin variant dəyişiklikləri üzərində qurulur. Melodiyada əsas ton yalnız sonuncu xanələrdə kadans zamanı eşidilir.

Hümayun muğamının intonasiyalarının üstünlüyü isə növbəti "Səfalət" nömrəsində özünü göstərir. Burada xalqın aclıq və safələt içində yaşaması, ağır həyat tərzi *Andantino* tempində humayunun kədərli melodik motivləri ilə səsləşir. Qeyd etmək lazımdır ki, kədərli mənzərəni yaratmaq üçün bəstəkar muğam improvizasiya xarakterli melodik frazalardan istifadə edir.

Növbəti "Mətanət" nömrəsində xalqın qəhrəmanlıq əzmi nümayiş olunur. Burada ilk baxışdan faktura dəyişməsə də, musiqinin tembr rəngarəngliyi diqqəti cəlb edir. Tonal yüksəkliyin

*Səfalət*




dəyişməsi (c-moll-a-moll), eləcə də melodiyada art.2-lı motivlərin sekvensiyası musiqiyə bir qədər hərəkətli xarakter verir. Sekvensiya nömrənin sonuna qədər davam etdirilir və əsas tonallığın tonikasında tamamlanır.

Bəstəkarın şəxsi arxivində əldə olunmuş əlyazmada (klavir) dördüncü nömrə kimi təqdim olunan "Döyüş" əvvəlki nömrələrdən bir sıra cəhətlərinə görə fərqlənir. İlk diqqəti cəlb edən fakturanın dəyişməsidir. Əsas mövzunun getdikcə əlavə səslərlə qatılaşması tembr rəngarəngliyini artırmaqla yanaşı, musiqiyə gərginlik gətirir. Punktirli notlardan istifadə olunması tamaşanın demək olar ki, bütün musiqi nömrələri üçün xarakterikdir. "Döyüş" səhnəsində bəstəkar punktir hərəkəti bütöv bir akkord silsiləsinə tətbiq etmişdir. Bu nömrədə harmonik dilin mürəkkəbləşməsi diqqəti cəlb edir. Əvvəlki nömrələrdə daha çox üçsəsli tərkibə üstünlük verən bəstəkar burada ikili dominantalardan geniş şəkildə istifadə edir. Gərginliyin azalmasına və məhəbbət hisslərinin ön plana çəkilməsinə səbəb olan "Orxanın məhəbbəti" səhnəsi tamaşanın lirik nömrələrindən biridir. Burada sevgi hissləri ilə alışan gəncin ülvi məhəbbəti tərənnüm olunur. Əsas mövzu violinin solosunda təqdim olunur. Reçitativ tipli melodiya yenə də şüştər intonasiyaları üzərində qurulmuşdur.

Lirik hisslərin tərənnüm edilməsinə baxmayaraq, ümumi əhval-ruhiyyənin tutqun olması, xalqın başında duran bəlaların çəkilməməsi burada da özünü göstərir. Sadə iki hissəli formada verilmiş bu nömrə gərginliyin bir qədər azalmasına xidmət edir və onun ardınca yenidən döyüş meydanı təsvir olunur.

Tamaşanın mərkəzi nömrələrindən biri də "Təntənə" adlı qalibiyyət marşıdır. Parlaq tonlarda, marş fakturasında yazılmış bu nömrədə B-dur tonallığı verilmişdir. Qəhrəmanlıq və qələbə sevinci ruhunda yazılmış marşda xalqın sevinci və əzmli xarakteri nümayiş olunur.

*Təntənə*




Marş sadə üç hissəli formadadır. Qalibiyyət marşının mərkəzdə yerləşməsi hələ mübarizənin sona çatmamasından xəbər verir və növbəti nömrə yenidən düşmənlə yaranan döyüş səhnələrini təsvir edir. Xalqın yenidən döyüşə qalxmasına yönələn süjet xəttində lirik obrazların tərənnümü canlanır. Burada məhəbbət və ülvi hisslərin təsvirinə daha geniş yer verilmişdir. Orxanla Ulduzun məhəbbətinə həsr olunan lirik adajio tamaşanın maraqlı musiqi nömrələrindəndir. Burada faktura tamamilə dəyişmişdir. Segah intonasiyaları eşidilir, müşayiətdə verilən akkord fakturası musiqidə lirik xarakteri daha qabarıq göstərir. Geniş kantilen melodiya aşağı istiqamətli sekvensiyalarla zəngindir. Adajioda üç hissəlilik meydana çıxır.




Tamaşa "Qələbə marşı" ilə tamamlanır. Sonda bəstəkar C-dur tonallığında parlaq və əzmkar ruhlu musiqidən istifadə etmişdir. Bu əsərin xarakteri bir qədər türk əsgərlərinin marşlarının xüsusiyyətlərini özündə əks etdirir.

Bəstəkar əvvəldə qeyd etdiyimiz əsərlərdə olduğu kimi, burada da təsvirçilik elementlərinə yer verməklə yanaşı, qəhrəmanların daxili aləmini açan emosional-psixoloji musiqi nümunələri yaratmışdır. Bəstəkarın bir çox teatr tamaşalarına bəstələdiyi musiqi əsasən lirik-romantik ruhdadır. Əksər tamaşalarda orkestrə təsviredicilik həvalə edilir. "Ədirnə fəthi" tamaşasına musiqi isə qəhrəmani-mübariz ruhdadır. Eyni zamanda burada lirik musiqiyə də müəyyən yer verilir.

## ƏDƏBİYYAT

1. Məmməd T.Q. XX əsr Azərbaycan dramaturgiyasının poetikası (filologiya elmləri üzrə doktorluq dissertasiyasının avtoreferatı). Bakı: 2004, s. 50

2. Süleymanova R.A. Azərbaycan dram əsərlərinin dramaturji inkişafında musiqinin rolu (1970-2000-ci illər) – sənətşünaslıq namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya. Bakı: 2008, s.165

3. Süleymanova R.A. Azərbaycan dram əsərlərinin dramaturji inkişafında musiqinin rolu (1970-2000-ci illər) – sənətşünaslıq namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya. Bakı: 2008, s.165

4.Керимова Н.Г. История театральной музыки Азербайджана в XX веке (монография). Баку: Марс Принт 2008, с. 468 (с. 117)

**Notaqrafiya**

5. O.Kazımi C.Cabbarlının "Ədirnə Fəthi" dramına yazılmış musiqi. Əlyazma (2000)

** Azərbaycan Milli Konservatoriyasının dosenti,*
*sənətşünaslıq üzrə fəlsəfə doktoru,*
*Əməkdar müəllim*
*E-mail:yusifovatarana@gmail.com*

**Tarana Yusifova**

**THE STAGE WORKS BY OGTAY KAZIMI**

The stage work is one of the areas by Ogtay Kazım that is productive. It includes the music written for opera, operetta, ballet, musical comedies and theatre performances. The composer's theatrical music was able to find its way into the hearts of the audience. The composer manages masterfully to make music inseparable from the plot line. The unity of music and the content of the work show itself in all the stage works by Ogtay Kazimi. His love of working with the theatre team is reflected in the presented list of these works. The drama work "Edirne Fethi" ("Conquest of Edirne"), dedicated to the events that took place in an important period of Turkish history, is rich in musical numbers reflecting fearlessness and bravery. In the work the composer indicates the elements of descriptiveness and creates musical samples that show the inner world of heroes.

**Keywords:** *composer, theatre, music, image, melody, genre*

**Тарана Юсифова**

**СЦЕНИЧЕСКИЕ ПРОИЗВЕДЕНИЯ ОГТАЯ КАЗЫМИ**

Одно из самых продуктивных направлений многогранного творчества Огтая Казыми это сценические постановки. Сюда входят оперы, оперетты, балеты, музыкальные комедии и музыка для театральных постановок. Театральная музыка композитора завоевала сердца публики. Композитор с большим мастерством не отделяет музыку от художественной сюжетной линии. Единство содержания произведения и музыки отражено во всех сценических произведениях Огтая Казыми. Его любовь к работе с коллективом театра отражена в списке этих работ. Посвященный событиям важного периода в истории Турции, спектакль «Покорение Эдирне» богат музыкальными номерами, отражающими бесстрашие и отвагу. В произведение композитор включает описательные элементы и создает музыкальные образцы, раскрывающие внутренний мир героев.

**Ключевые слова:** *композитор, театр, музыка, образ, мелодия, жанр*

*(Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir)*

**Daxilolma: İlkin variant: 07.01.2021**
**Son variant: 19.02.2021**